**T U R İ Z M**

**UOT: 379.85.**

**Pənah Qurbanov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: penahqurbanov22@gmail.com**

# AZƏRBAYCANDA MİLLİ-MƏDƏNİ MÜXTƏLİFLİK VƏ ETNOMƏDƏNİ TURİZM

**Xülasə:** Mədəniyyətin ən mühüm şərtlərindən biri mədəni müxtəliflik və plüralizmdir. Bu problem etnik, milli və ümumbəşəri miqyasda mədəni ünsiyyət və inteqrasiyanın təhlili üzərində qurulur. Mədəniyyətin təsiri və funksiyaları özünü sivilizasiya tiplərində müxtəlif formalarda göstərir. Bu da mədəniyyətin daxili məzmun və strukturundakı dəyər istiqamətlərinin fərqliliyindən irəli gəlir.

**Açar sözlər**: Azərbaycan, etnos, mədəniyyət, turizm.

Milli-mədəni müxtəlifliyin təməl elmi prinsip, fakt və yanaşma metodu kimi əsaslandırılması dahi alman mütəfəkkiri İ.Q.Herderin adı ilə başlayır. O, özünün "Bəşəriyyətin tarixi fəlsəfəsinə dair ideyalar" (1784-1791) əsərində mədəniyyəti bəşər cəmiyyətinin formalaşmasında ən mühüm amil kimi səciyyələndirmişdir (3; s. 59). İ.Q.Herderin fikrincə, məhz dində, dildə, sənətdə, elmdə təcəssümünü tapan mədəniyyət hər bir cəmiyyətin bənzərsizliyini, identikliyini şərtləndirir.

Mədəniyyəti yalnız öyrənmək deyil, həm də qəbul etmək – üstəlik digər mədəniyyətin də mövcud olmasını təbii tarixi fakt olaraq qəbul etmək lazımdır (5; s. 74).

Etnologiyada yayılmış fikrə görə, "mədəni birlik" dedikdə, müəyyən etnosu təşkil edən hər hansı bir toplum anlaşılır və burada mədəniyyət sosial həyatın bütün tərəflərini (siyasət, iqtisadiyyat və s. sahələrə ayrılmadan) əhatə edir. Burada yenə də mədəniyyət dedikdə, bütövlükdə cəmiyyət nəzərdə tutulur (6; s. 98).

Soyuq müharibədən sonra dünyada insanlar arasındakı ən mühüm fərq nə siyasi, nə iqtisadi, nə də ideoloji yönümdədir. Bunlar mədəni fərqlər və müxtə-

lifliklərdir (7; s. 607).

Mədəniyyətin etnik, milli və bəşəri səviyyələrinin formalaşmasında mədəni xüsusiyyət və amillərin oxşarlığı mühüm rol oynayır. Bu səviyyələrin fərqləndirilməsi "mədəni müxtəliflik" anlayışının mahiyyətini anlamağa kömək edir.

Etnik mədəniyyət müstəvisində etnosun formalaşmasında, yalnız mədəni deyil, coğrafi (təbii mühit), sosial (sosial strukturların bənzərliyi), biososial (antropoloji tip kimi) və təsərrüfat faktorlarının da rolu böyükdür. Təbii mühit və digər amillərin təsiri ilə insanların fəal qarşılıqlı ünsiyyəti nəticəsində bəzi dil, adət, ənənə, məişət və psixoloji cəhətlərin ümumiləşməsi formalaşa bilir. Lakin hər hansı bir insan birliyi və etnik özünüdərketmə şüuru bu etnosa mənsubluq hissi formalaşdıra bilmirsə, onda bu birliyin parametrləri, mahiyyəti qeyri-müəyyən və anlaşılmaz qalır.

"Etnik qrup" və ya "etnos" sözləri özündə bəzi konseptual anlaşılmazlıqları əks etdirsə də, müasir elmdə özünün məxsusi, özəl tarixinin kollektiv (ictimai şüur səviyyəsində) anlamı və dərki nəticəsində dil, din, irq və milli identikliyə malik sosial qrupdur. "Etnos" bir neçə kollektiv identiklik formalarının daşıyıcısı, yəni mədəni, dini, milli identiklik formalarıdır. Etnik spesifika və əlamətlər anlayışı mövcuddur. Bura, əsasən, dil, mədəni adət, ənənə, norma və qaydalar, din, ərazi, tarix kimi amillər də daxildir (2).

Mədəniyyətin differensiyası gedişində dil, din, sənət, siyasi-mədəni təsisatlar və s. kimi identiklik nümunələrindən biri sistem yaradıcı amil qismində – konkret etnik birliyi başqasına münasibətdə təşkilatlandıran qüvvə rolunda çıxış edir.

Bu və ya digər amilin rolu və əhəmiyyəti, əsasən, nisbi xarakter daşıyır. Etnik mədəniyyətin hansısa bir xüsusiyyəti digər mədəniyyətdə olub-olmamasına baxmayaraq müxtəliflik və fərqliliyin əsas göstəricisinə çevrilir. Bu fərqli xüsusiyyət tarix boyu yalnız mədəniyyətlərin təbii mahiyyət əlaməti kimi deyil, onları ayıran ziddiyyət, qarşıdurma və özgəlik əlaməti kimi də qəbul edilmişdir.

Etnik mədəniyyətlərin qarşılıqlı ünsiyyəti daxilən ziddiyyətli prosesdir. Mədəniyyətdən bəhrələnmə inteqrasiya proseslərinə təkan verməklə bərabər, etnik spesifikanın mühafizəsinə yönəlmiş özünüdərk şüurunda da təhlil edilir.

"Etnik insan birliyinin" səviyyəsi millətin formalaşması ilə yoxa çıxmır. Əksinə, millətlərin əksəriyyəti üçün etnik mənsubiyyət – "milli hiss" fenomeninin mənbələrindən biridir. İnsanlar özlərini, əsasən mənşə, tarix və dil kimi

kollektiv birlik və tamlıq hissi sayəsində fərqləndirirlər.

Bir çox hallarda elmi-kütləvi və publisistik ədəbiyyatda "etnik və milli mədəniyyət" anlayışlarının eyniləşdirilməsinin şahidi oluruq. Lakin qeyd edildiyi kimi, insanların etnik birliyinin mənbəyi genetik xüsusiyyətlərin və təbii məişət şəraitinin ümumiliyi ilə fərqlənən ilkin qrupdur (8; s. 93).

Azərbaycan çox qədimdən ən müxtəlif xalqların və mədəniyyətlərin vətəni olmuşdur. Bu xalqların və mədəniyyətlərin Azərbaycan dövlətinə, tarixinə, coğrafiyasına sadiqliyi və mənsubluğu bünövrədən bütün dünya üçün açıq olan mənəvi-mədəni dəyərlərimizin mahiyyətindən qaynaqlanmışdır. Azərbaycanın və "azərbaycançılığın" əzəməti bu müqəddəs diyarı öz Vətəni hesab edən və onun adı ilə adlanmaqdan qürur duyan bütün insanların maddi və mənəvi gücündə, qüdrətindədir. Bu səbəbdən də "azərbaycançılığın" ortaq dəyər və sərvətlərə dayaqlanaraq doğuracağı potensialın təsir və miqyasını az-çox təsəvvür edəndə, yalnız xoş məram və niyyətlə sevinənlər deyil, narahatlıq duyanlar da olmuşdur.

Xalqımızın tarixi kökləri taleyin hökmü ilə bütün dünyaya səpələnmiş ümumtürk etnosuna gedib çıxır. Bununla yanaşı, coğrafi və geosiyasi baxımdan həmişə bütün dünyaya açıq olmuş, ən müxtəlif mədəniyyətlər arasında sintez-qovşaq missiyasını daşımışdır.

Şərq mədəniyyətinin dünya və Avropa mədəniyyətinə, yaxud əksinə keçid alması üçün Azərbaycan körpü rolunu oynamışdır. Çoxmillətli, çoxdinli, çoxdilli Azərbaycan üçün bu ideologiyanı tarixi reallıq – yerləşdiyimiz ərazinin özü diktə etmişdir. Həqiqətən, ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı Azərbaycan unikal coğrafi, geopolitik və mədəni məkandır (3; s. 68).

Ölkəmizdə bir ailə kimi, vahid tarixi tale, genetik-etnik yaddaş və münasibətlərin daşıyıcısı olan xalqlar: talışlar, ləzgilər, avarlar, kürdlər, tatlar və başqaları özlərini azərbaycanlı adlandırırlar. Bu xalqların mənəvi yaddaşı tarix boyu zərdüştlükdən başlamış, dünyanın bütün əsas dinlərinin ən ülvi, bəşəri dəyərləri ilə zənginləşmişdir. Mədəniyyət və ünsiyyət tariximiz bizə ruhi-mənəvi böyüklüyün və əzəmətin çoxsaylı nümunələrini miras qoymuşdur.

Tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə fərqlənən Azərbaycanda bu müxtəlifliyin etnik-milli mənbələri mövcuddur. Azərbaycanda yaşayan onlarla etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti – folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyənləşdirmişdir.

Azərbaycanda etnik müxtəlifliyi maraq və məqsədlər üçün istifadə etmək istəyən qüvvələr – həm daxildə, həm də xaricdə həmişə olmuşdur. Azərbaycanın əzəmət və qüdrətini sübut edən bu rəngarəng "sosial-mədəni kapitalı" əleyhimizə yönəldənlərin son cəhdlərinin qarşısı Azərbaycan xalqının böyük lideri, müdrik rəhbərimiz Heydər Əliyev tərəfindən qətiyyətlə alındı (1; s. 255).

Azərbaycan dövləti təminat verir ki, ölkə ərazisində yaşayan milli azlıqlar qanunla nəzərdə tutulan hər cür təşkilat yarada bilərlər. Belə təşkilatların hüquqi vəziyyətini Azərbaycan Respublikasının Konstitusiyası və ya qanunlar tənzimləyir. Azlıqların təşkilatlarının fəaliyyəti cəmiyyətin demokratikləşdirilməsinin əlaməti kimi çıxış edir.

Respublika ərazisində yaşayan milli azlıq və etnik qrupların mədəni dəyərlərinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində dövlətimiz tərəfindən daim diqqət və qayğı göstərilir.

**Ədəbiyyat siyahısı:**

1. Aslanova Rəbiyyət. "Qloballaşma və mədəni müxtəliflik". Bakı 2004. səh-255.
2. Etnik azlıqların linqvistik hüquqları üzrə 1998-ci il Oslo tövsiyəsi.
3. Jdanov Y.A. "Avrasiyanın günəş çələngi". M. 1999. səh-68.
4. Гердер И.Г. «Идеи к философии истории человечества». М. 1991, стр.98.
5. Каган М.С. «Философия культуры». 1996, стр.74.
6. Краткий словарь культурологических понятий и терминов. М. 2000, стр.98.
7. Хантингтон С. Столкновение цивилизаций. М. 2003, стр.607.
8. Иорданский В.Б. «Этнос и нация». 1992, стр. 93.

**Панах Гурбанов**

## НАЦИОНАЛЬНО-КУЛЬТУРНОЕ РАЗНООБРАЗИЕ В АЗЕРБАЙДЖАНЕ И ЭТНОКУЛЬТУРНЫЙ ТУРИЗМ

**Резюме**: Одним из важнейших условий культуры является культурное разнообразие и плюрализм. Эта проблема строится на анализе культурного общения и интеграции в этническом, национальном и общечеловеческом масштабе. Влияние и функции культуры проявляются в различных формах и типах цивилизации. Это также обусловлено различием ценностных ориентаций во внутреннем содержании и структуре культуры.

**Ключевые слова**: Азербайджан, этнос, культура, туризм.

**Panah Gurbanov**

## NATIONAL-CULTURAL DIVERSITY IN AZERBAIJAN AND ETHNOCULTURAL TOURISM

**Summary**: One of the most important conditions of culture is cultural diversity and pluralism. This problem is based on the analysis of cultural communication and integration on an ethnic, national and universal scale. The influence and functions of culture manifest themselves in various forms in the types of civilization. This also comes from the differentiation of value orientations in the internal content and structure of culture.

**Key words**: Azerbaijan, ethnos, culture, tourism

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Kulturologiya elmləri doktoru, dosent İlqar Hüseynov**